# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

22 (140) 14 dekabr 2019-cu il

İctimai-siyasi qəzet


## Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 16 il keçir. Tarix dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Ulu öndər Heydər Əliyevin də ömür yolu, əslində, Azərbaycanın bir qərinəlik tarixidir. O tarix ki, uzun illər boyu Azərbaycan mühitinin, Azərbaycan həyatının ayrılmaz parçası olub. Onun yazdığı tarix qurtuluş, inkişaf, milli tərəqqi salnaməsinə çevrilib. Heydər Əliyev milli dövlətçiliyimizin banisi, müstəqilliyimizin rəmzidir.



Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.



Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömürgün yoldaşı, görkəmli oftalmoloqalim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və digər rəsmi şəxslər iştirak ediblər.

Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq heç də hər kəsə nəsib olmur. Xalq yalnız sevdiyi insanları yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də "Azərbaycan sənin üçün kiçikdir, sən ittifaqa lazımsan", - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.

Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu Öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin mənafeyini praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Odur ki, Azərbaycan müstəqil siyasət yürütmə prinsiplərinin bərqərar olduğu güc mərkəzinə çevrilib. Dünya birliyində hörmət və ehtiram ünvanına çevrilən ölkəmiz beynəlxalq aləmdə dostluq, tərəfdaşlıq və qardaşlığın mühüm nümunəsi kimi tanınır və sözün əsl mənasında, tam müstəqil ölkəyə çevrilib. Dahilik intellektin fövqəladə böyüklüyüdür. Heydər Əliyev isə özünün qeyri-adi intellektini yalnız xalqa, dövlətə və Vətənə xidmətə həsr etdi. Ona görə də müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir.

AZƏRBAYCAN VETERANI

# Respublika Veteranlar Təşkilatının IX plenumu keçirilib

Dekabrın 10-da Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının IX plenumu keçirilib.

Tədbirdə təşkilatın Rəyasət Heyətinin üzvləri, veteranlar, şəhər və rayon veteran təşkilatlarının sədrləri iştirak ediblər.

Respublika Veteranlar Təşkilatının sədri, general-polkovnik Tofiq Ağahüseynov plenumu açaraq tədbirin gündəliyi barədə məlumat verib. Bildirib ki, tədbirdə təşkilatın builki fəaliyyətinin yekunları, 2020-ci il üçün tədbirlər planı və cari məsələlər müzakirə olunacaq.






Gündəlik təsdiqləndikdən sonra Respublika Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov qurumun cari ildəki fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi ilə çıxış edib.

Ulu öndər Heydər Əliyevin veteranlara daim diqqət və qayğı göstərdiyini vurğulayan məruzəçi hazırda bu siyasətin dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Qeyd edib ki, veteranların sosial müdafiəsinin gücləndirilməsi qurumun fəaliyyətinin əsas istiqamətlərindən biridir. Veteranların sosial müdafiəsinin təminində dövlət orqanlarının köməyini yüksək qiymətləndirən C.Xəlilov səmərəli fəaliyyətin təşkilinə göstərilən dəstəyə görə veteranlar adından Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirib.




Təşkilatın keçirdiyi tədbirlər barədə məlumat verən C.Xəlilov bildirib ki, bu gün Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması istiqamətində mühüm işlər görülür. Məhz bu baxımdan veteranlarımız gənclərimizin hərbi vətənpərvərlik, dövlətçiliyə və xalqına sədaqət ruhunda tərbiyəsində, eləcə də ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Təşkilatımız da bu istiqamətdə yerli və beynəlxalq səviyyəli çoxsaylı tədbirlər keçirir.

Diqqətə çatdırılıb ki, Azərbaycan dövləti veteranlarla bağlı məqsədyönlü siyasət həyata keçirir. Hər il alman faşizmi üzərində Qələbənin ildönümü ərəfəsində Prezident İlham Əliyev müharibə veteranları ilə görüşərək onların problemləri ilə maraqlanır. İkinci Dünya müharibəsi iştirakçılarına verilən birdəfəlik maddi yardımın məbləğinin ildən-ilə artırılması, eləcə də veteranların sosial müdafiəsinin gücləndirilməsi sahəsində imzalanmış çoxsaylı fərman və sərəncamlar bu sahəyə dövlət qayğısının əyani göstəricisidir. Respublika Veteranlar Təşkilatı bu qayğını və diqqəti yüksək qiymətləndirir, göstərilən etimadı layiqincə doğrultmağa və fəaliyyətini daha səmərəli qurmağa çalışır.

Məlumat verilib ki, 2019-cu ildə İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin 74 illiyi ilə əlaqədar təşkilat tərəfindən bir sıra tədbirlər, veteranlarla görüşlər keçirilib. Beynəlxalq əlaqələrini genişləndirən təşkilat xarici ölkələrdə ölkəmizi layiqincə təmsil edib.



Hesabat dövründə təşkilatın orqanı olan “Azərbaycan veteranı” qəzetinin 23 nömrəsi dərc olunub, təbliğatı işin qurulmasında veteran.gov.az saytının imkanlarından səmərəli istifadə edilib. Keçirilən tədbirlər, eləcə də ictimaiyyətin Vətənin fədakar müdafiəçilərinə müsbət münasibəti mətbuatda, o cümlədən AZƏRTAC tərəfindən geniş işıqlandırılır.



Gələn il görüləcək işlərdən danışan məruzəçi deyib ki, Respublika Veteranlar Təşkilatı İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin 75 illiyinin qeyd edilməsi ilə bağlı müvafiq tədbirlər planı hazırlayıb.

Sonra məruzə ətrafında çıxışlar olub, təşkilati məsələlərə baxılıb.

Nərimanov rayon veteranlar təşkilatının sədri Elşad Şabanov, Respublika Veteranlar Təşkilatının Nəzarət-Təftiş Komissiyasının sədri Salman Babayev, Gəncə şəhər veteranlar təşkilatının sədri Yusif Məmmədov, Şəki rayon veteranlar təşkilatının sədri Mustafa Əhmədov, Böyük Vətən müharibəsi veteranı Fatma Səttarova və başqaları çıxış edərək cəmiyyətimizin həyatında mühüm rol oynayan Respublika Veteranlar Təşkilatının uğurlu fəaliyyətindən, qarşıda duran vəzifələrdən danışıblar. Plenum iştirakçıları Respublika Veteranlar Təşkilatının hər zaman Azərbaycan Prezidentinin ətrafında sıx birləşərək onun həyata keçirdiyi siyasəti fəal şəkildə dəstəklədiklərini bildiriblər.



Plenumda müzakirəyə çıxarılan məsələlər, o cümlədən Respublika Veteranlar Təşkilatının 2020-ci il üçün tədbirlər planı səsə qoyularaq qəbul olunub. Habelə Respublika Veteranlar Təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib.

# Heydər Əliyev misilsiz xidmətləri ilə Azərbaycan xalqının Ümummilli Liderinə çevrilib

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Nərimanov Rayon İcra Hakimiyyətinin və təşkilatın əməkdaşlarının, rayon ictimaiyyətinin nümayəndələrinin, ziyalıların, veteranların, gənclərin iştirakı ilə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunan anım mərasimi keçirilib.

Anım tədbirində ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub, Ulu Öndərin və




şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının həyatındakı misilsiz xidmətlərindən danışıb. Qeyd edib ki, hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi şəxsiyyətləri var. Həmin dahilər qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib gəliblər. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşüb.

Müstəsna xidmətləri ilə əbədilik qazanan ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlayıb, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter alıb. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib.

Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bu gün ölkəmizin hər yerində və onun hüdudlarından kənarda anılır.

Heydər Əliyevin keçdiyi böyük, mənalı və şərəfli həyat yolu zaman və məkan anlayışına sığmır. Ümummilli lider Heydər Əliyevin xarakterində və fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşlik hələ gənc yaşlarından özünü göstərirdi. Naxçıvanda sadə,




zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan bu böyük insan hələ gəncliyindən yüksək vəzifələr tutub, çiyinlərində böyük bir ölkənin yükünü daşıyıb.

Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov Ulu Öndərin Azərbaycan xalqının tarixində xüsusi iz buraxdığını diqqətə çatdırıb. Qeyd edib ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdəndir. Ümummilli lider Heydər Əliyev məqsədyönlü fəaliyyəti ilə Azərbaycan dövlətini zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olub. Azərbaycanın 1969-cu ildən sonrakı dövrü tarixə Heydər Əliyev dövrü kimi əbədi həkk olunub. 1969-1982-ci illərdə ictimai həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ulu Öndər böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilib. Buna görə də Heydər Əliyev fenomeni həmişə diqqətləri cəlb edib, dünya azərbaycanlılarının Ümummilli Liderinin heyranlıq doğuracaq dərəcədə coşqun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılıb.

Bugünkü Azərbaycan Ordusunun qurulması, inki-



şafı, möhkəmlənməsi Heydər Əliyevin yorulmaz fəaliyyətinin, dövlətçilik təfəkkürünün, siyasi uzaqgörənliyinin və təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsidir. Milli ordu quruculuğu sahəsində Heydər Əliyev irsinin əvəzsiz dəyəri ondadır ki, bu dəyər başlanğıcını hələ sovetlər dövründən götürüb. Müstəqil olmadığı zaman Azərbaycanın qəhrəmanlıq ənənələrinin davam etdirilməsi, zəngin hərb tarixinin canlandırılması, gənclərin qəhrəmanlıq ənənələri əsasında tərbiyə edilməsi, sərkərdələrin və görkəmli hərb xadimlərinin şərəfli yolunun davam etdirilməsi Heydər Əliyevin hər zaman diqqət mərkəzində olub.

Qeyd olunub ki, Azərbaycan xalqı milli dövlətçiliyin dağılmaq təhlükəsi qarşısında qaldığı, ən ağır günlərini yaşadığı bir zamanda - 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini təkidlə tələb edib və həmin vaxtdan taleyini öz xilaskarına etibar edib. Xalqının təkidli dəvətini qəbul edən Heydər Əliyevin hakimiyyətə qayıdışı günü müstəqil Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi yazılıb.

Çıxış edən veteranlar və ziyalılar ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətlərindən danışıb, Ümummilli Liderlə bağlı xatirələrini bölüşüblər. Veteranlar Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda Azərbaycanın qazandığı böyük nailiyyətlərdən qürur duyduqlarını bildiriblər. Onlar gənc nəslin vətənpərvər ruhda Ulu Öndər ənənələrinə sadiq ruhda tərbiyə edilməsində əllərindən gələni əsirgəməyəcəklərini vurğulayıblar.

# “Qardaşlıq məzarlığı” Memorial kompleksində torpağın götürülməsi mərasimi keçirildi




1941-1945-ci illər Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyinin qeyd olunması ilə bağlı Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Məbədi tarixi-memorial kompleksində qələbənin əldə olunmasına böyük və əvəzolunmaz töhfə vermiş sovet döyüşçülərinin dəfn olunduğu yerlərdən götürülmüş torpaq nümunələrinin qoyulması həyata keçiriləcəkdir.

Bu məqsədlə Rusiya Federasiyasının Azərbaycandakı Səfirliyi və Nərimanov Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Nərimanov rayonu ərazisində yerləşən “Qardaşlıq məzarlığı” Memorial kompleksində torpağın götürülməsi mərasimi keçirilmişdir.

Tədbirdə Nərimanov Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Şahmar İbadov, Rusiya Federasiyasının Azərbaycandakı səfiri Mixail Boçarnikov və səfirliyin əməkdaşları, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini polkovnik Cəlil Xəlilov, Müdafiə



Nazirliyinin əməkdaşları, Nərimanov rayonu Veteranlar Təşkilatının üzvləri, müharibə veteranları, gənclər və ictimaiyyət nümayəndələri iştirak etmişlər.



Mərasimdə çıxış edən səfir M.Boçarnikov mərasimin təşkilinə görə Respublika Veteranlar Təşkilatına və Nərimanov rayon İcra Hakimiyyətinə təşəkkürünü bildirmişdir. Sonra torpaq nümunələri Rusiya Federasiyasının Azərbaycandakı səfiri M.Boçarnikova təqdim edildi.

Tədbirin sonunda mərasim iştirakçıları “Qardaşlıq Məzarlığı” memorial kompleksində Böyük Vətən Müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri qoyaraq, onların xatirəsini ehtiramla yad etdilər.

AZƏRBAYCAN VETERANI

# Mehriban Əliyevanın Rusiya səfəri dövlətlərarası münasibətləri yeni mərhələyə yüksəldəcək

*Müsahibimiz Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilovdur.*

***- Cəlil müəllim, ölkəmizin I vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiyaya səfəri, burada keçirdiyi görüşlər Azərbaycanla yanaşı, Rusiya ictimaiyyətində və mediasında da böyük marağa səbəb oldu. Sizcə bu səfər iki dövlət arasındakı münasibətlərin inkişafı baxımından nə dərəcədə önəmlidir?***

-Öncə onu qeyd edək ki, Rusiya Azərbaycana qonşu olan bir dövlətdir. Təbii ki, əlaqələrimiz sıx, mehriban, qonşuluq, strateji əməkdaşlığa söykənir. Rusiya ilə siyasi, iqtisadi, mədəni, humanitar və hərbi sahədə əlaqələrimiz yüksələn xətt üzrə inkişaf etməkdədir. Birinci vitse-prezident Mehriban Əliyevadan öncə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya rəhbərliyi ilə faydalı görüşlər keçirdi. Bu görüşlərdə Qarabağ problemi də müzakirə olundu və hesab edirəm ki, bu məsələdə də irəliləyiş olacaq. Bu baxımdan Mehriban xanımın Rusiya səfərini, orada keçirdiyi yüksək səviyyəli görüşləri olduqca əhəmiyyətli hesab edirəm. Əminəm ki, bu görüş dövlətlərimiz arasındakı ikitərəfli münasibətlərin inkişafını genişləndirəcək və onu mahiyyət etibarı ilə yeni mərhələyə yüksəldəcək.

Mehriban xanım Əliyevanın Rusiyada yüksək səviyyədə qarşılanması, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Mehriban xanımı "Dostluq" ordeni ilə təltif etməsi təqdirəlayiqdir. Bütün bunlar göstərdi ki, Rusiya iki dövlət arasında dostluq və əməkdaşlığın inkişafına böyük töhfə verən Mehriban xanımın fəaliyyətini yüksək qiymətləndirir.

***- Qarabağ probleminin həllinə Rusiyanın təsir imkanının böyük olduğu Azərbaycan ictimai-siyasi məkanında hər zaman səslənən fikirlərdən biridir. Sizcə Qarabağ konfliktinin həllinə Kremlin təsir imkanı hansı səviyyədədir və Rusiyanın bu məsələdə Ermənistana göstərəcəyi təzyiq nəyi dəyişə bilər?***

- Rusiya qonşu dövlət, həm də Minsk qrupunun həmsədrlərindən biridir. Rusiya Ermənistanı məcbur edə bilər ki, Azərbaycan torpaqlarını işğaldan azad etsin. Buna Rusiyanın diplomatik, iqtisadi və hərbi gücü imkan verir.

Ermənistan tamamilə Rusiyadan asılı vəziyyətdədir. Rusiya Ermənistandan əlini çəksə, Ermənistan bir dövlət kimi tamamilə çökər. Rusiya Ermənistanı düz yola dəvət etməli və onu başa salmalıdır ki, bir dövlət kimi onun inkişafı Qarabağ probleminin həllindən keçir.

Rusiya da Ermənistanın təcavüzkarlığından xəbərdardır. Onu da qeyd edim ki, Rusiya-Azərbaycan münasibətlərinin inkişafı Ermənistanda böyük narahatlığa səbəb olmaqdadır. Bu səbəbdən də, Ermənistan zaman-zaman Rusiya-Azərbaycan münasibətlərini gərginləşdirməyə çalışıb. Bu məqsədlə bəzən Ermənistan ortaya yalan məlumatlar yayıb, bununla da bu münasibətlərə xələl gətirməyə çalışıblar. Amma heç nəyə nail ola bilməyiblər. Çünki Rusiyada yaxşı başa düşürlər ki, Azərbaycan qonşu dövlət olmaqla yanaşı həmdə etibarlı tərəfdaşdır, o cümlədən və Rusiya ilə mehriban qonşuluq siyasətinin qorunub saxlanılmasında maraqlıdır.

Rusiya hərbi-iqtisadi və siyasi gücünə görə dünyanın aparıcı ölkələrindən biridir. Onun qlobal proseslərə, xüsusilə də MDB məkanındakı proseslərə təsir gücü çox böyükdür. Bizim Rusiya ilə 200 illik tarixi dostluq əlaqələrimiz var. Biz bu əlaqələri daha da inkişaf etdirməliyik. Rusiya xalqı və rəhbərliyi də Azərbaycan həqiqətlərini bilməli, haqqın-ədalətin öz yerini almasına dəstək verməlidir. Azərbaycanın məqsədi sadəcə, öz ərazi bütövlüyünü təmin etməkdir. Bizim heç bir dövlətin ərazisində gözümüz yoxdur və Ermənistandan fərqli olaraq qonşu dövlətlərin ərazisini işğal etmək niyyəti ilə yaşamırıq.

***- Rusiya ilə əlaqələrin inkişafı ölkəmizə iqtisadi-mədəni baxımdan nə vəd edir?***

-Rusiya ilə əlaqələrin inkişafı, ölkəmiz üçün iqtisadi-siyasi və hərbi baxımdan da mühüm əhəmiyyət kəsb edir. Rusiya Azərbaycan üçün həm də böyük bir bazardır. Azərbaycanda istehsal olunan sənaye və kənd təsərrüfatı məhsulları daha çox Rusiya bazarında satılır.

Bizim orada 3 milyondan çox vətəndaşımız yaşayır. Dövlət rəhbərləri arasında münasibətlər nə qədər isti olsa, oradakı soydaşlarımızın vəziyyəti daha yaxşı olar. Azərbaycanda rus dili, rus ədəbiyyatı, rus mədəniyyətinə böyük maraq var. Ölkəmizdə rus dilində məktəblər fəaliyyət göstərir. Azərbaycanda Rusiyanın Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialında həm rus, həm də azərbaycanlı tələbələr oxuyurlar. Eyni zamanda, azərbaycanlılar Rusiyanın ali təhsil müəssisələrində təhsil alırlar. Hansı ki, bu məqam hörmətli Mehriban xanımın Rusiya səfərində də vurğulandı və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən təqdir edildi.

***- Cəlil müəllim, aldığımız məlumata görə, siz özünüz də Moskvadan yeni qayıtmısınız. Mümkünsə, Moskva səfərinin məqsəd və mahiyyəti ilə bağlı məlumat almaq istərdik.***

-Moskvada bu günlərdə MDB Dövlətləri Veteranlar Təşkilatının Rəyasət Heyətinin iclası keçirildi. Tədbirlərdə mənim də çıxışım oldu. Qeyd etdim ki, MDB Veteranlar Təşkilatı ilə əlaqələrin daha da genişləndirilməsi, II Dünya Müharibəsində iştirak edən ölkələrdə döyüşən Azərbaycan döyüşçüləri haqqında məlumatların toplanması, altı döyüş diviziyamızın hansı ölkələrin ərazisindən keçdiyi, hansı dövlətlərdə döyüşməsinin bir daha dəqiqləşdirilməsi, itkin düşən, döyüşlərdə qəhrəmanlıqlar göstərən şəxslərin müəyyən edilməsi, qəhrəmanlarımızın abidəsinin döyüşdükləri şəhərlərdə ucaldılması və s. məsələləri diqqətə çatdırdım. Bundan əlavə "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində sovet xalqının faşizm üzərində Qələbənin dünyəvi-tarixi əhəmiyyəti, Qələbənin mənbələri, müasir zaman üçün dərslər və nəticələr" mövzusunda konfrans da keçirildi. Konfransda faşizm ideologiyası, XXI əsrdə faşizmin təsiri, 1941-1945-ci illərdə antifaşist koalisiyasında iki siyasət və iki strategiya, II Dünya müharibəsində SSRİ-nin azadlıq missiyası, ordu və xalqın birliyi, sovet xalqının ön və arxa cəbhədəki mübarizəsi, müharibə illərində sovet xalqının dostluğu əsas müzakirə istiqamətləri oldu. Çıxışımda Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Respublikamızda veteranlara göstərdikləri qayğı və diqqətin yüksək səviyyədə olmasını konfrans iştirakçılarının diqqətinə çatdırdım. Azərbaycanda İkinci Dünya müharibəsi ilə bağlı abidələrin qorunub saxlanılması, o cümlədən, tarixi saxtalaşdırmaq cəhdləri ilə bağlı mövqeyimizi də ortaya qoydum. Faşistlərlə əlbir olub sovet döyüşçülərinə qarşı vuruşan erməni satqını Njdeyə abidə qoyulmasını pisləməklə yanaşı, bunun müharibə qurbanlarının əziz xatirəsinə təhqir kimi qiymətləndirdim. Biz müharibədə qəhrəmanlıq göstərən insanlarımızın xatirəsini hər zaman uca tutmuşuq, onları xalqımıza tanıtmağa çalışmışıq. Onların dünyaya tanıdılması, onların haqqında filmlərin çəkilməsi, kitabların yazılması, itkin düşənlər haqqında məlumatların əldə edilməsinə çalışırıq. Azərbaycanlıların döyüşdüyü ərazilərdə bununla bağlı tabloların, abidələrin yaradılmasında maraqlıyıq. Çalışırıq ki, bu ölkələrin həm veteran təşkilatları, həm dövlət orqanları ilə daim əlaqə yaradaq və bu işləri həyata keçirək. Bunun çoxuna nail olmuşuq. Serbiyada, Sloveniyada, Ukraynada, Moldovada, Sevestopolda, Taqanroqda, Volqoqradda, Moskvada və Moskva ətrafındakı döyüşlərdə vuruşan döyüşçülərimizlə bağlı müxtəlif abidələr qoyulub və bu, bizim üçün qürurvericidir.

***- Konfransda Qarabağ problemi, onun həlli zərurəti ilə bağlı müzakirə aparıldımı?***

-Mən konfransda bir təkliflə çıxış etdim. Xatırlatdım ki, gələn il faşizm üzərində qələbənin 75 illiyini qeyd edəcəyik. Arzu edərdik ki, müharibə dövrünün dostluq mühitini qaytarmaq üçün MDB dövlətləri bir-birlərinə həmin dövrün dostluq münasibəti ilə yanaşsın. Azərbaycanla yanaşı, bəzi ölkələrdə də SSRİ-nin süqutundan sonra müharibə ocaqları yaranıb. İstərdik ki, MDB ölkələrinin başçıları bununla bağlı xüsusi tədbirlər keçirsinlər. Faşizm üzərində qələbənin 75 illiyi ərəfəsində bu konfliktlərə son qoysunlar.

Mən MDB Veteranlar Təşkilatına bununla bağlı təklif vermişəm. İstəyirəm ki, MDB Veteranlar Təşkilatı adından MDB dövlətləri başçılarına müraciət edək. Ümid edirəm ki, belə bir müraciət baş tutacaq, işğalçı Ermənistanın təcavüzkar siyasəti bir daha ifşa olunacaq. Ümid edirəm ki, MDB dövlətləri qaldırdığımız problemə diqqət yetirəcək, onun həlli istiqamətində müvafiq addımlar atacaqlar. Hesab edirəm ki, bu, MDB məkanındakı konflikt və qarşıdurmaların həlli baxımından faydalı olar.



***Şəmsiyyə Əliqızı,***
***"İki sahil"***

# 107 yaşlı Mələk nənənin ömür dastanı



Kainat sonsuz olduğu qədər təbiətin gözəllikləri də tükənməzdir. Əvvəli, sonu olmayan bu mənzərələrin vəsfinə nə qədər əsərlər, dastanlar, rəsmlər həsr olunsa da dərk edilməz möcüzələr qarşısında çaş-baş qalırsan. Göylərə boylanan dədə palıd, möhtəşəm budaqları ilə hər kəsə qucaq açan nadir, pirani dəmirağac, müşk-əmbər ətirli, güllü-çiçəkli dağ yamacları, çəmənliklər, xəfif cənub küləyinin təsirindən ləpələnən çəltik sahələri, qarlı zirvələrdən qayaları, dərələri nəriltisi, gurultusu ilə dilə gətirən, Xəzərin görüşünə, salamına tələsən, göz yaşı qədər saf, dum-duru Astaraçayı, yerin qəlbindən çağlayan min bir dərdin dərmanı qaynar İstisu bulaqları, sehirli, cənnətməkan təbiətin qoynunda dünyaya göz açan insan yüz il yaşamasa əlbət ki, günah özündədir. 107 il xoşbəxt tale yaşayan pirani bir nənəmiz barədə könül xoşluğu ilə söhbət açmaq yəqin ki, oxucularımıza maraqlı olar.

Ötən əsrin 1912-ci ilində Astara rayonun Siyatük kəndində dünyaya gəlmiş xanım-xatın Mələk nənədir söhbətimizin qəhrəmanı.

Bir əsrlik ömür kitabını vərəqləyəndə onun səhifələrində həm acı, həm də şirin hekayələrin şahidi oluruq. Ötən əsrin 20-30-cu illərin aclıq, səfalət, repressiya azmış kimi dəhşətli fəlakətlər gətirən, 1941-ci ildə başlanan Böyük Vətən müharibəsi Mələk nənənin həyatında unudulmaz iz buraxdı. Həyat yoldaşı Cəbrayıl kişinin və yaxınlarının müharibəyə səfərbər olması vəziyyəti daha da ağırlaşdırdı. Son dərəcə çətin sınaqlar nənənin ümidini qırmadı, əksinə, bütün qüvvəsini toplayaraq ailənin ağır yükünü çiynində daşıdı. Yüzlərlə zəhmətkeş kənd sakinləri kimi Mələk nənə gecəni gündüzə qatıb həm ailənin qayğısını çəkir, həm də müharibəyə, əsgərlərə yardımların toplanmasında fəal iştirak edir. "Hər şey cəbhə üçün" hərəkatına qoşularaq əsgərlər üçün isti geyimlər, köynəklər, corablar toxuyur, qiymətli üzüklərini müharibəyə yardım fonduna hədiyyə edir. Təəssüflər olsun ki, kənddən müharibəyə səfərbər olmuş 42 nəfərdən 6 nəfər əlil kimi qayıtdı.

Beləliklə amansız müharibənin vurduğu sağalmaz yaralar tarixdə Mələk nənənin ömür kitabına qanlı səhifə kimi yazıldı.

Mələk nənə adi, sadə kənd həyatında - yazın, yayın, payızın, qışın təmiz, son dərəcə saf dağ havasında, ana qucağı qədər etibarlı məkanda boya-başa çatmasaydı indi xəyalında belə xatirələr, canlanmazdı.

Qışın qarı ağ örpəyim, yaylığım olub. Yazın güllü-çiçəkli mənzərəsi rəngbərəng libasım, qızılı payız zərli donum olub. Yayın qızmar cənub günəşi üzümə şəfəq saçaraq ruhumu oxşamış, dağlardan əsən sərin meh al yanaqlarıma dağılan şəvə kimi saçlarımın darağı olub.

Sevdim təbiəti. O da qucağına alıb ruzi, sağlam, firavan həyat, sevgi, məhəbbət, uzun ömür xoşbəxtlik bəxş etdi mənə.

Yamyaşıl meşələrə həyat verən, çayların dumduru sularında yarpaqların pıçıltısını pusan, yarpaqlar arasından suya göz-qaş edən, isti günəş işığına can atan, atılıb-düşən, rəqs edən balıqlardan, ucsuz-bucaqsız yamaclarda, çəmənliklərdə, təbiətin ən təmiz nemətləri ilə qidalanan mal-qaranın, qoyun-quzuların südü, qaymağı, yağı, pendiri, əti, nazlı təbiətin balı, saf bulaq suyu, meyvəsi - alması, heyvası, narı, ənciri, növ-növ ləziz təamlar sağlam həyat, uzun ömür verdi mənə. Şabalıdyarpaq palıd kimi boy atdım, ucaldım, alça ağacı tək ağ çiçəyə büründüm, şəfəq saçdım, daha parlaq göründüm. Zirvədə dövrə vuran, sevib-sevilmək eşqi ilə mavi səmanın ənginliklərini süzüb dövrə vuran qartalın gözü ilə təbiətin möcüzəli tablosuna baxdım, baxdım... Bu tabloda quşların civiltisi, kəkliklərin, turacların qaqqıltısı, sevgi rəqsləri, güllərin-çiçəklərin ətrinə, rənginə valeh olan bülbüllərin həzin nəğməsi könlümü oxşadı, ruhuma qida verdi, qəlbimə məhəbbət toxumu səpdi. Sevdim, sevildim, dəmirağac kimi qol-qanad açıb şaxələndim, övladlar, nəvələr, nəticələr, kötükcələr dövrəyə aldı məni. Saf, büllur, pak, təmiz, valehedici, yaşamaq eşqi ilə dolu həyat tərzi...

Bir zamanlar gənclik eşqi çağlayanda mələksima çöhrən, bahar çiçəkləri qədər təravətli gülüşlərinlə heyran edirdin hər kəsi, hər yanı, təbiəti də. Lalədən seçilməyən al yanaqları, piyalə gözləri, bəd nəzərdən, yad nəfəsdən gizlədən şəvə kimi müşk-əmbər saçlar... Bu gün Heydərbaba, Savalan dağlarının ağ örpəyə bürünmüş zirvəsinin bənzəri saçlar Mələk nənənin gül üzlü simasında müdriklik nişanəsidir. Alnındakı, yanaqlarındakı qırışlar keçdiyi ömür yolunun, cığırlarının bələdçisi, yaraşığı, bəzəyidir. Bəli, yaşamaq gözəldir, yaşamağa dəyər. Mələk nənənin ömür dastanı nəsillərə ən gözəl nümunədir.

Həyatımızdır, vətənimizdir, müqəddəs torpağımızdır, doğma ana qucağımızdır, ruzi verənimizdir, yaşadandır təbiətimiz. Göz bəbəyi kimi qoruyun həyatımızı, Vətənimizi, ruzi mənbəyimizi. Sevin onu, müqəddəs məbəd kimi. Qəlbinizdə təbiətin süfrəsini açın. Onun ecazkar mənzərələrini seyr edin, həyat nəğmələrini dinləyin. Bağrınıza basın doğma övlad kimi, əzizləyin vəfalı, sevgili yar kimi. Sevin təbiəti, sevəcək yaradan sizi.

***Kamil Kamilov,***
***ehtiyatda olan zabit***
***Astara rayonu***

# Nəsillərə örnək ziyalı ömrü

Onun keçdiyi uzun ömür yolu çoxşaxəli, keşməkeşli və eyni zamanda başqalarına nümunə olacaq bir həyat yoludur. Allah yaratdığı bu bəndəsini çox sınaqlara çəkmiş, həyatın bütün çətinliklərini, ağrı-acısını və bir az da şirinliyini daddırıb. Söhbət Böyük Vətən müharibəsi iştirakçısı, vaxtı ilə atası Zeynalabdinlə özü də bilmədən almanlara qarşı eyni cəbhədə vuruşmuş Ələkbərov Vəli Zeynalabdin oğlundan gedir. O, 1922-ci ilin iyul ayında Qərbi Azərbaycanın Qəmərli rayonunun Sabunçu kəndində kolxozçu ailəsində anadan olub. Ailədə 6 uşaq olublar. V.Ələkbərov 1977-ci ildə Zəngibasar rayonunun Uluxanlı kəndində natamam orta məktəbi qurtardıqdan sonra İrəvan Kənd Təsərrüfatı texnikumuna daxil olub, oranı bitirdikdən sonra bir müddət doğulduğu Sabunçu kəndində müəllim işləyir. Lakin bu uzun çəkmir. 1941-ci ilin iyun ayının 22-də Hitler Almaniyasının qəflətən Sovet İttifaqına hücüm etməsi gənc Vəlinin müharibəyə getməsinə səbəb oldu. O, 1941-ci ilin 23 noyabrında 1944-cü ilin 17 avqustuna qədər zabit kimi ölüm-dirim savaşında iştirak edir. Döyüşlərin birində aldığı güllə yarasına görə ordudan tərxis olunur. Evə qayıtdıqdan sonra atasını görə bilmir. Yaşının çox olmasına baxmayaraq 60 yaşı olan atasını erməni hərbi komissarlığından bir erməni dığasının yerinə müharibəyə göndəririlər. Mənfur erməni xisləti özünü burada göstəribmiş. Bir il yarımdan sonra 1943-cü ilin 13 aprelində Zeynalabdin Krosnadar diyarının Abinski rayonunun düşməndən təmizlənməsində gedən ağır döyüşdə həlak olur. Və elə həmin rayonun Miqemski qəbiristanlığında dəfn olunur. Əsas faktlardan biri odur ki, ata və oğul eyni vaxtda 589-cu polkun tərkibində vuruşsalar da, bir-birlərindən xəbərsiz olublar. Yalnız atasının qara kağızı gələndən sonra o, bunu bilir. 350 mindən çox azərbaycanlının həlak olduğu insanlardan biri də Zeynalabdin kişi idi.

V.Ələkbərov 1944-cü ildən 1950-ci ilə qədər yenidən Sabunçu kənd məktəbində müəllim, məktəb direktoru işləyir. Eyni zamanda Naxçıvanda 2



9 may 2010-cu il

illik Pedaqoji Müəllimlər İnstitutunu da qiyabi bitirir. Lakin bu da çox çəkmir. Ermənilərin yalanına uyan Stalinin əmri ilə deportasiya olunaraq öz doğma ata-baba yurdlarından köçürülürlər. 1950-ci ilin aprel ayının sonlarında keçmiş Əli Bayramlı (indiki Şirvan şəhəri) rayonunun Dadaşbəyli kəndində məskunlaşırlar. Elə o gündən Vəli müəllim ömrünün sonuna kimi burada müxtəlif vəzifələrdə işləyib. 1952-53-cü illərdə Az.KPMK-i yanında 2 illik respublika partiya məktəbi nəzdində partiya-sovet işçiləri hazırlayan kursu, 1959-cu ildə isə BDU-nun tarix fakultəsini də qiyabi olaraq qurtarır. Əli Bayramlı rayon (1963-cü ildə respublika tabeliyində şəhər statusu almışdır) partiya komitəsində təbliğatçı, müdir, partiya kabinetinin müdiri, rayonun aynası sayılan "Yüksəliş uğrunda" qəzetin redaktoru, 11.05.1962-22.03.1965-ci ilə qədər XDS-i icraiyyə komitəsinin sədr müavini, 1965-ci ildən 1973-cü ilə kimi sədr vəzifəsini icra etmişdir. Ardıcıl olaraq müxtəlif illərdə 1, 16, 13 və 10 nömrəli orta məktəblərdə müəllim, direktor işləmişdir. Düz on il - 1976-86-ci il tarixlərində şəhərin maarif şöbəsinə rəhbərlik etmiş, gənc nəslin maariflənməsində, ali məktəblərə qəbul olunmasında və həmçinin təhsilin keyfiyyətinin daha da yüksəlməsi üçün bütün bacarıq və imkanlarından istifadə etmişdir.

Yaşa görə təqaüdə çıxdıqdan bir müddət sonra əsl təşkilatçı, ziyalı, bacarıqlı kadr, enerjili olduğunu nəzərə alan şəhər rəhbərliyi onu çağırıb işləməyi təklif edirlər. Respublikamızın müstəqillik qazanmasının ilk illərindən Kommunal Təsərrüfatı şöbəsinin müdiri, Mənzil Təsərrüfatı istehsalat birliyinin rəisi Hacıqəhrəmanlı qəsəbəsinin icra nümayəndəsi, təhsil şöbəsi, estetik tərbiyə mərkəzində metodist, Mülki müdafiə qərargahının rəisi və.s. vəzifələrdə çalışmışdır. Harada işləməsindən asılı olmayaraq o, özünü sadə və halal insan, əsl ziyalı, haqqı nahaqqa qurban verməyən vətəndaş kimi tanıda bilmişdir. Onun ictimai-siyasi fəaliyyəti də çox geniş və əhatəli olmuşdur. Ayrı-ayrı vaxtlarda şəhər (rayon) partiya komitəsində plenum və büro üzvü, XDS-in deputatı, İcra Hakimiyyəti Başçısının Şura üzvü, 50 il Sovet KP-nın sıralarında olmuşdur. 1997-ci ildən YAP-ın üzvü olmaqla Heydər Əliyev ideyalarına sadiq qalmışdır.

İşdə və müharibədə, eləcə də ictimai-siyasi həyatındakı fədakarlığına görə orden və medallar, döş nişanları, fəxri fərmanlar, təşəkkürnamələr, hədiyyələr almışdır. "Qırmızı Əmək Bayrağı", "Birinci dərəcəli BVM" ordenləri, "İgidliyə görə", "Döyüşdə fərqlənməyə görə", "Qafqazın müdafiəsinə görə", "1941-45-ci illərdə Almaniya üzərində qələbəyə görə", "Əmək veteranı" və digər onlarca müxtəlif medallarla təltif olunmuşdur.

Respublikanın bir çox regionlarında da Vəli müəllimi yaxşı tanıyırdılar. Evi həmişə qonaqlı-qaralı olub. Kiminə elm və təhsil verib, kiminə köməklik edib, doğru yol göstərib. Vaxtı ilə onunla bir yerdə işləmiş, hazırda Şirvan şəhər Veteranlar Təşkilatının sədri Vaqif Qayıbov Vəli müəllimlə bağlı xatirələri: "-Yaxşı yadımdadır, sənədlərimi hazırlayıb qiyabi yolla oxumaq üçün tarix fakültəsinə aparıb verəcəkdim. Sənəd qəbulu vaxtının qurtarmasına bir gündən də az vaxt qalmışdı. Maarif şöbəsinin müdiri Vəli müəllimə onları imzalatdırmalı idim Mən qəbul otağına çatanda artıq gec idi. O, nahar fasiləsinə gedirdi. Salam verib çəkinə-çəkinə (gecikdiyim üçün) gəlişimin səbəbini söylədim. -Niyə belə gecikmisən,-deyib, geri döndü. Sənədlərimi diqqətlə gözdən keçirib imza atdıqdan sonra möhür vurub əlimi bərk-bərk sıxaraq dedi:-Gərək etimadımızı doğruldasan. Təşəkkür edib dedim ki, sağlıq olsun tələbə biletimi alan kimi bura-sizin yanınıza qayıdacağam. Və mən doğurdan da belə etdim. O, həm də çox dəqiq, tələbkar, bir az da zarafatı xoşlayan insan idi. Bizdə metodist işləyəndə də şöbəyə hamıdan tez-tez gələr, ən axırda gedərdi..."

Vəli müəllim barədə dövrü mətbuatda, radio və televiziyada məqalələr yazılmış, oçerklər səsləndirilmiş, sujetlər göstərilmişdir. Onuna bağlı xatirələr bitib tükənməzdir. Onların hamısını bir qəzet səhifəsinə yerləşdirmək də mümkün deyil. Bizə elə gəlir ki, onun haqqında yaxın zamanda kitab da yazılacaqdır.

10 ildən artıq Şirvan şəhər Ağsaqqallar Şurasına rəhbərlik etmiş Vəli Zeynalabdin oğlu Ələkbərov 2016-cı ilin baharında-mart ayının 17-sində 94 yaşında dünyasını dəyişmişdir.

Ruhu şad olsun!

***Vaqif Qayıbov***
***Şirvan şəhər Veteranlar Təşkilatının sədri***
***Musaxan Heydərli***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

AZƏRBAYCAN VETERANI

# Müharibə hər bir insanın qəlbindən keçmişdir

İnsanlar çoxəsrlik tarixi ərzində xeyli sınaqlardan çıxmışdır. Ancaq miqyasına, gərginliyinə, qurbanlarına, itkilərin və dağıntıların miqyasına görə Böyük Vətən müharibəsinə (1941-1945-ci il) bərabər olanı yoxdur. Ona görə də öz yekunlarına və nəticələrinə görə dünya tarixi üçün çox əhəmiyyətli olan bu qələbə daha da dəyərli və misilsizdir.

Müharibə dörd ilə yaxın (1418 gün və gecə) davam etmişdir. O, hər bir insanın qəlbindən keçmişdir. Sovet İttifaqı müharibə illəri ərzində 27 milyona yaxın adam itirmişdir. Onlardan 8 mln 500 min dinc əhali işğal edilmiş və cəbhəyanı ərazilərdə aclıqdan, bombalardan, mərmilərdən, ağır əmək və həyat şəraitindən məhv olmuşdur. Daha 2 milyondan artıq adam Almaniyada məcburi işlərdə qırılmışdır. Hitlerin genosid siyasəti nəticəsində məhv edilənlərin (güllələnənlərin, həbs düşərgələrində, zindanlarda, gettolarda öldürülənlərin) sayı 7 mln 500 min təşkil etmişdir. Silahlı qüvvələrin şəxsi heyəti ilə sərhəd və daxili qoşunların birgə itkilərinin sayı 9 milyona yaxın idi. Yaponiya ilə müharibədə olan itkilər də mütləq nəzərə alınmalıdır.

SSRİ-də 1710 şəhər, 70 mindən çox kənd, 32 min zavod və fabrik dağıdılmış, 98 min kolxoz qarət edilmişdir. SSRİ-də dağıntıların ümumi dəyəri mübaribənin getdiyi bütün dövlətlərdə olan dağıntıların cəmi dəyərinin, demək olar ki, yarısını təşkil edirdi.

Dünya xəritəsində "SSRİ" adında dövlət artıq yoxdur, ancaq postsovet məkanında yaşayan xalqlar artıq 75 ildir ki, o dəhşətli hadisələri xatırlayırlar.

Sovet qoşunları, əsgərdən marşaladək, Vətən və xalq qarşısında ali borcunu dərk edərək kütləvi qəhrəmanlıq nümayiş etdirirdilər. Bu qəhrəmanlıq olum və ölüm arasında Vətənə məhəbbət, ləyaqət və əsgəri borc, yenilməz qabiliyyət əzmi, müdafiədə mətinlik, hücumda qətiyyət, cəsarət kimi dəyərlərin ölməz olduğunu dərk edən sovet döyüşçüsünün, böyük xalqın mənəvi ruh yüksəkliyinə əsaslanırdı.

Qələbəyə aparan yol olduqca çətin və qanlı idi. Olmazın dərəcədə mürəkkəb olan ilk dövrdə düşmən strateji təşəbbüsü ələ alaraq ölkəmizin dərinliklərinə irəliləməyə nail olmuşdu. Müharibənin əvvəllərində düşməndən ciddi zərbə alan Sovet İttifaqı bu ölüm-dirim qarşıdurmasına sinə gərib, Hitler qəsbkarlarını tamamilə darmadağın etməsini nə ilə izah etmək olar?

Böyük Vətən müharibəsində Qələbəmizin əsas mənbələrindən biri Sovet Silahlı Qüvvələrinin güclü potensiala malik olması idi. Qələbə sovet hərb sənətinin və elminin üstünlüyünü, bizim hərbi kadrların döyüş ustalığının və ona strateji rəhbərliyin, bütövlükdə hərbi təşkilatçılığın nə qədər yüksək səviyyədə olduğunu nümayiş etdirdi. SSRİ Silahlı Qüvvələri Hitlerçilərin ildırımsürətli müharibə planını puç edib təşəbbüsü ələ keçirdikdən sonra, müharibədə əsaslı dönüş yaratmış və düşməni darmadağın etmişdilər.

Bundan başqa, müharibə ərzində və hətta Avropada ikinci cəbhə açıldıqdan sonra belə Hitler komandanlığı, bir qayda olaraq, sovet qoşunlarına qarşı yüksək döyüş qabiliyyətli ordu birləşmələrini və hissələrini atırdılar. Bu faktı hətta bizim keçmiş düşmənlərimiz etiraf edirdilər.

Qələbə üçün zəmin yaradan amillərdən biri də dövlətimizdə müxtəlif hərbi texnika istehsal etməyə qadir, müharibənin maddi ehtiyaclarını təmin edə bilən güclü iqtisadi bazanın olması idi.

Alman strateqləri hesab edirdilər ki, ilk zərbələrdən sonra Sovet İttifaqının iqtisadiyyatı dağılacaq və hərbi sənayeni heç vaxt bərpa etmək mümkün olmayacaqdır. Ancaq onlar səhvə yol verdilər. Sovet təsərrüfat sistemi, onun möhkəmliyi və mobilliyi, xalqın titanik zəhməti qısa müddətdə hərbi sənayeni böyük miqyasda təşkil etməyə imkan yaratdı və bir çox göstəricilərə görə o, faşist bloku dövlətlərinin sənayesini ötüb keçirdi.

Döyüş meydanlarında Qələbə sovet silahının gücü ilə qazanılmışdı. Ordulara daima müasir silah növləri: təyyarələr, tanklar, özüyeriyən top qurğuları, top və minomyotlar, bir sıra atıcı silah növləri, qumbaralar və s. göndərilirdi. Bu bizim qələbənin əsasən müttəfiqlərin gücü və



köməyi hesabına qazanıldığı barədə bəzi "saxtakarların" uydurmalarını qətiyyətlə inkar edir. Belə bir fikri misal gətirək: göndərilən silahlar yerli sənayenin istehsal etdiyi ilə müqayisədə onun təyyarələrdə 15 faizini, tank və özüyeriyən top qurğularında 12 faizini, top və zenit qurğularında 2 faizini təşkil edirdi. Avtotexniki təchizat çox yüksək səviyyəyə qalxmışdı. Qızıl Ordu 427 min yük və minik maşını (bu ümumi nəqliyyatın 70 faizini təşkil edirdi) almışdı. Sovet Hərbi Dəniz donanmasının bu istiqamətdə fəaliyyəti heç də geri qalmırdı.

Sovet İttifaqı bu dövrdə ABŞ-a 30 min ton xrom, 32 min ton manqan filizi, ümumi dəyəri 2,2 mln dollar olan xeyli miqdarda qızıl, platin, meşə materialları və s. göndərmişdi. 1945-ci ilin mayında Avropada müharibənin sonuna yaxın ABŞ heç bir xəbərdarlıq etmədən təchizatı dayandırdı.

Qələbənin qazanılmasında əhəmiyyətli dərəcədə rol oynayan Sovet cəmiyyətinin mənəvi-siyasi və ruh birliyi idi. Faşist Almaniyası Sovet İttifaqına basqın etməklə çoxmillətli dövlətin müharibə və əziyyətlərinə tab gətirməyib parçalanacağına, millətçi və antisovet ünsürlərin aktivləşəcəyinə, "beşinci kolonun" yaranacağına ümid bəsləyirdi. Ancaq bu baş vermədi. Əhalinin işğal edilmiş ərazilərdə çox cüzi bir hissəsi bu və ya digər səbəblərdən hitlerçilərlə əməkdaşlıq edirdilər.

Sovet xalqı müharibəni mənəvi və ideoloji cəhətcə hazırlıqlı qarşılamışdı. SSRİ-nin elm, incəsənət, mədəni quruculuq sahəsində nailiyyətləri bu dövrdə diqqətə layiqdir. Zəhmətkeşlərə, döyüşçülərə mənəvi təsir vasitələrindən şifahi təbliğat və təşviqat, mətbuat, ədəbiyyat və incəsənəti göstərmək olar. Müharibənin sonlarına yaxın ölkədə 23 mln. Tirajla 6 min 445 adda qəzet buraxılırdı. Qələbənin əldə edilməsində xidmətlərinə görə onların bir qismi ordenlərə layiq görülmüşdü. Qələbədə sovet yazıçılarının, şairlərinin, kinorejissorlarının xeyli rolu vardır. Müharibə illəri ərzində yüksək bədiiliyə malik bir sıra əsərlər yaradılmışdı.

Sovet dövlətinin xarici siyasəti bu istiqamətdə xeyli iş görmüşdü. Onun ən başlıca vəzifələri müharibənin qalibiyyətlə bitməsi üçün beynəlxalq aləmdə əlverişli şərait yaratmaq, hitlerçilərin SSRİ-ni dünyadan təcrid etmək planlarını alt-üst etmək, güclü antifaşist koalisiyasını yaratmaq idi. Ölkəmizin müttəfiqlər qarşısında öhdəliklərini şərəflə yerinə yetirməsi antihitler koalisiyasının fəaliyyətini yüksəldən ən əsas amil idi.

Böyük Vətən müharibəsi Sovet İttifaqının tam hərbi-siyasi, iqtisadi və ideoloji qələbəsi ilə başa çatdı. Müharibənin qalibiyyətlə bitməsinin əsas nəticəsi ondan ibarətdir ki, Sovet xalqı ən çətin sınaqlardan çıxaraq, zamanın ən qaranlıq qüvvəsini-faşizmi məhv edib öz dövlətinin azadlığını və müstəqilliyini qoruyub saxlaya bildi. Faşizmi məhv etməklə Sovet İttifaqı antihitler koalisiyası dövlətlərinin qoşunları ilə birlikdə dünya ictimaiyyətini köləlik təhlükəsindən qurtardı.

Müharibə illərində Sovet dövləti nə qədər böyük potensial imkanlara malik olduğunu nümayiş etdirdi. Bu imkanlar özünü müharibədən sonrakı dövrdə daha parlaq göstərdi. Qısa müddət ərzində faşistlər tərəfindən dağıdılmış xalq təsərrüfatı bərpa edildi, dağılmış ərazilərdə fabriklər ucaldı.

Alman faşizminin və yapon militarizminin süqutundan sonra SSRİ-nin dövlət sərhədləri dəqiqləşdirilib möhkəmləndirildi. Sovet İttifaqının Qələbəsi onun beynəlxalq aləmdə nüfuzunu və ona təsirini yüksəltdi. Əgər 1941-ci ildə SSRİ ilə 26 dövlət diplomatik münasibət saxlayırdısa, artıq 1945-ci ildə onların sayı 52-yə çatmışdı.

Qələbə SSRİ-ni müharibədən sonra dünyanın aparıcı dövlətləri sırasına çıxardı və beynəlxalq münasibətlər sahəsində yeni mərhələ üçün real zəmin yaratdı. İlk növbədə bu Birləşmiş Millətlər Təşkilatının yaradılması idi. Faşist Almaniyasının və onun əlaltılarının məğlubiy-



yətinin müsbət nəticələrindən biri də müstəmləkə sisteminin dağılması idi. II Dünya müharibəsinin qalibiyyətlə bitməsi XX əsr tarixində yeni səhifə açdı. Şərqlə Qərb arasında qüvvələr bölgüsündə indi əsas rolları Amerika Birləşmiş Ştatları ilə Sovet İttifaqı oynamağa başladı. SSRİ nəinki beynəlxalq aləmdən təcrid olunmadı, həm də dünyanın ən qabaqcıl dövləti statusuna malik oldu.

Bütün bunlar Böyük Vətən müharibəsinin əsas nəticələridir. Onarın aktuallığı danılmazdır. Müharibə təcrübəsi bizi ümumi məqsədlər naminə, xalqlarımız arasında birlik naminə razılıq yolları axtarmağa, MDB dövlətlərində siyasi və iqtisadi sabitliyə nail olmağa istiqamətləndirdi.

Böyük Vətən müharibəsindəki Qələbə xalqımızın və döyüşçülərimizin həyatında ən əlamətdar hadisədir.

Qələbə günü - ən işıqlı, ən sevimli bayramdır. Eyni zamanda, mahnıda olduğu kimi, "gözləri yaşardan bayramdır".

Qələbənin 75 illiyini qeyd edərkən biz, Vətənimizin azadlığı və müstəqilliyi uğrunda, bir çox dövlətlərin faşist köləliyindən qurtuluşu naminə həyatlarından keçən milyonlarla insanın xatirəsini hörmətlə anırıq. Xalqımız və bütün bəşəriyyət onlara göstərdikləri qəhrəmanlığa və ölməz igidliyə görə minnətdardır.

*Şəddat Cəfərov,*
*Azərbaycan və Rusiya Yazıçılar Birliklərinin üzvü*

# Ветеран Великой Отечественной войны Иван Тимченко: Я навсегда связал свою жизнь с Азербайджаном

Иван Иванович - кавалер трех государственных наград - орденов Красной Звезды и Отечественной войны и медали «За боевые заслуги». Но, по словам самого ветерана, главная награда для него - это его большая семья и верные друзья.

- Иван Иванович, откуда вы родом?

- Я родился далеко отсюда - на Дальнем Востоке, в Приморском крае. Нас в семье было пятеро братьев. С самого детства я мечтал о том, что, однажды, когда вырасту, стану военным. После школы в 1938 году поступил в Челябинское авиационное училище, которое закончил как раз за год до начала Великой Отечественной войны. После присвоения звания лейтенанта меня направили в Воронеж в авиационный полк. В том же году меня перевели в Азербайджанскую ССР - в Кировабад (Гянджу). Тогда я и не думал, что навсегда свяжу свою жизнь с Азербайджаном. В Кировабаде, в 42-й дальнебомбардировочной авиационной дивизии, меня и застала война. Из пяти братьев четверо были на войне: один - в авиации, один - в пехоте, один - в артиллерии, и один был моряком.

- Расскажите о боевых буднях. Какой вы помните войну?

- Знаете, в последнее время память меня все чаще подводит, но те военные дни я помню хорошо. Молодое поколение не знает, что такое война. И, слава Богу, что не знает. Война - это смерть товарищей и родных, постоянное недосыпание, стресс. Война - это всегда тяжёлое испытание не только для страны, но и для каждого отдельного человека. Среди ужасов военного времени людям удалось сберечь в себе доброту, любовь, сострадание. Победа в Великой Отечественной войне досталась нам очень дорогой ценой. Да, нам было тяжело, и порой очень тяжело. Но мы не теряли надежды, мы шли только вперед, к победе, и мы верили, что победим. Это очень важно - верить в победу.

Я совершил множество боевых вылетов, от Азовского до Чёрного моря, воевал на Кубани и в Крыму, уничтожая стратегические объекты гитлеровцев. Во время одного из таких боевых заданий получил тяжелое ранение. На тот момент мне было всего 23 года. Я прекрасно помню тот день - 20 января 1941 года мы летали над Крымом и бомбили линию фронта. Там, на земле творилось что-то невообразимое: дым, гарь, сожженные населенные пункты, убитые. В наш самолет попало три снаряда и меня ранило в спину. Вернувшись на одном двигателе на аэродром, я доложил командиру о выполнении задания. Когда врач взял меня за руку, чтобы проверить пульс, я потерял сознание и пришел в себя только через пять дней. Уже не в Крымской, где я был, а в другой станице. Из-за ранения мне не разрешили летать и отправили в Тбилиси. Там меня подлечили, хотя удалить все осколки так и не смогли. Оттуда я опять попал в Кировабад, который успел стать родным. И, хотя на фронт медкомиссия меня уже не отпустила, но для победы я трудился всю войну.

Будучи штурманом эскадрильи, в военном авиационном училище летчиков им. Героя Советского Союза Виктора Хользунова готовил летчиков для фронта и всегда гордился боевыми достижениями своих курсантов. А после войны я решил навсегда остаться жить в Азербайджане. Переехал в Баку, где долгое время работал в строительной сфере.

- Иван Иванович, наверняка вы помните тот день - 9 мая 1945 года. Как вы узнали о победе?

-Сообщение Совинформбюро, а следом выступление министра иностранных дел СССР Молотова о капитуляции Германии, я услышал, готовясь к очередному уроку в авиационном училище. Узнал о победе по радио. Знаете, в то время на улицах повсюду висели радиоприемники. Помню, как все выбегали на улицу, плакали и смеялись. Столько цветов появилось: и бумажные, и живые. Все люди вышли с цветами на улицу. И пели, и плясали! Столько было радости, что невозможно даже. Словами трудно передать те чувства, которые мы испытывали. У меня тогда дома был пистолет и два ящика пиропатронов, я вытащил их и стал стрелять. Устроил своеобразный салют. Потом все соседи собрались, накрыли стол, каждый принес с собой что-нибудь съестное. Так, вместе, одной большой семьей, мы отпраздновали победу над фашизмом.



Здесь в Азербайджане я женился. У нас с супругой родилось четверо сыновей. Здесь я нашел множество хороших и верных друзей, обрел свой новый дом. Сегодня у меня растут три внука и четыре правнучки, и я чувствую себя счастливым человеком. У меня есть все, о чем может только мечтать человек.

Самира Кязимова
"Москва-Баку"

# Один из героев Ширвана-Леонов Виктор Петрович



Леонов Виктор Петрович – командир отделения 106-й гвардейской отдельной разведывательной роты 110-й гвардейской Краснознамённой стрелковой дивизии 37-й армии Степного фронта, гвардии старший сержант. Родился в 1924 году в селе Спасское (с 1933 года – Венгерово) Томской губернии, ныне Венгеровского района Новосибирской области. Из семьи крестьянина. Русский. Образование неполное среднее. Работал в совхозе. В конце 1930-х годов семья переехала в Азербайджанскую ССР. Призван в Красную Армию в 1941 году Алибайрамлинским райвоенкоматом Азербайджанской ССР, вскоре после начала Великой Отечественной войны. Служил в запасных частях, в октябре-декабре 1941 года воевал на Юго-Западном фронте.

С июля 1942 года – вновь в действующей армии, воевал в 5-й гвардейской стрелковой бригаде на Закавказском и Северо-Кавказском фронтах, участник обороны Кавказа, наступления на Северном Кавказе, Краснодарской наступательной операции, локальных армейских операций на Кубани при попытках прорыва «Голубой линии» у станицы Крымская. С сентября 1943 года воевал на Степном фронте. Командир отделения 106-й гвардейской отдельной разведывательной роты 110-й гвардейской стрелковой дивизии 37-й армии Степного фронта гвардии старший сержант В.П.Леонов отличился при форсировании Днепра. 30 сентября 1943 года в составе отделения переправился через Днепр под огнём врага у села Куцеволовка Онуфриевского района Кировоградской области. На плацдарме В.П.Леонов получил приказ разведать систему обороны противника.

Во главе разведгруппы перешёл через линию фронта и пять суток вёл непрерывную разведку. Затем группа захватила четырёх «языков» и документы, после чего благополучно вернулась к своим. Полученные данные значительно помогли командованию дивизии при организации прорыва немецкой обороны. В бою в ночь на 9 октября 1943 года при начале наступления первым поднял своё отделение в атаку и ворвался в окопы противника на высоте 177.0 у села Куцеволовка. При отражении немецкой контратаки его отделение во главе с командиром гранатами уничтожило 3 танка врага и удержало захваченный рубеж.



Сам В.П.Леонов получил осколочное ранение, но остался в строю. За мужество и героизм, проявленные на фронте борьбы с немецко-фашистскими захватчиками, Указом Президиума Верховного Совета СССР от 22 февраля 1944 года гвардии старшему сержанту Леонову Виктору Петровичу присвоено звание Героя Советского Союза с вручением ордена Ленина и медали "Золотая Звезда" (№3994).После вручения высшей награды Родины Герой продолжал отважно сражаться на фронте. Он был ранен ещё раз и вернулся в строй, дважды награждён орденами.

Но до Победы он не дожил: начальник отделения разведки 50-й тяжелой артиллерийской бригады 28-й артиллерийской дивизии прорыва старший сержант Леонов погиб в бою 24 декабря 1944 года во время блокады Курляндской группировки противника. Похоронен в городе Добеле Латвийской ССР на Воинском братском кладбище. Награждён орденами Ленина (22.02.1944), Отечественной войны 1-й и 2-й степеней, медалью «За отвагу» (17.07.1943). Имя Героя присвоено Венгеровской средней общеобразовательной школе Венгеровского района Новосибирской области (2000). Также его именем названа улица в Венгерово.

Согласно сведениям о потерях 28-й артиллерийской дивизии прорыва, опубликованным в Объединённой базе данных «Мемориал», старший сержант В.П.Леонов значится погибшим 26 декабря 1944 года.

# В Баку ко Дню Неизвестного Солдата состоялась церемония возложения цветов



Как известно, День неизвестного солдата отмечается в Российской Федерации и ряде стран мира как память о воинах, погибших на фронтах Великой Отечественной войны, передает со ссылкой на Trend.

Эта дата приурочена к моменту перезахоронения в 1966 году останков неизвестного солдата в Александровском саду, у стен Кремля.

Общественность Азербайджана совместно с представителями дипломатического корпуса России в Азербайджане приняли участие в церемонии возложения цветов в парке Рихарда Зорге к монументу памяти «1941-1945 г.г.» и на Ясамальском кладбище в Баку.

В братских могилах захоронены участники





битвы за Кавказ, которые скончались в госпиталях от тяжелых ранений.

Ранее, 1 декабря сотрудники Российского информационно-культурного центра в Баку (РИКЦ) и их дети, а также представители Землячества казаков Азербайджана и Волонтеры Победы провели субботник по наведению порядка на воинском мемориальном захоронении на Ясамальском кладбище города Баку.

# "USS Torsk" 1945-ci ildə Yaponiyanın sonuncu hərbi gəmisini batırmış sualtı qayıqdır

Baltimor şəhərinin daxili limanında İkinci Dünya müharibəsi zamanı ABŞ Hərbi Dəniz Qüvvələri (HDQ) üçün inşa edilmiş "Tenç" tipli "USS Torsk" (SS-423) sualtı qayığı turistlər üçün nümayiş etdirilməyə başlayıb. "Tenç" tipli sualtı qayıqlar 1944-1951-ci illər ərzində inşa edilib. Mahiyyət etibarilə "Qato" və "Balao" tipli sualtı qayıqların təkmilləşdirilmiş variantı olub. Tonnajın 35-40 ton artırılması gəminin möhkəmliyini xeyli, yaşayış bölmələrinin həcmini cüzi şəkildə artırmağa imkan verib. 1944-cü ilin iyununda Portsmut hərbi-dəniz tərsanəsində "USS Torsk" sualtı qayığının inşasına başlanıb. Elə həmin ilin



sentyabrında gəmi suya salınıb, dekabrda isə istifadəyə verilib.

1945-ci ildə "USS Torsk" Yaponiya sahillərində patrul xidməti üzrə iki hərbi tur həyata keçirib, Yaponiya HDQ-nin bir yük gəmisini və iki sahil freqatını batırıb. Onların sonuncusu 1945-ci il avqustun 14-də torpeda ilə vurulub və İkinci Dünya müharibəsində ABŞ Hərbi-Dəniz Qüvvələri tərəfindən batırılmış sonuncu düşmən gəmisi olub. 1950-ci və 1960-cı illərdə "USS Torsk" təlim gəmisi




kimi fəaliyyət göstərib. Gəmi Şimali Amerikada təlimlərdə iştirak etməklə bərabər, ABŞ HDQ-nin Atlantik donanması hissələrinə sualtı qayıq əleyhinə müdafiə taktikasının öyrədilməsi məqsədi ilə dəfələrlə Aralıq dənizinə yollanıb. 1964-cü ildə istismardan çıxarılmış "USS Torsk" HDQ bazası üçün təlim gəmisi olub. O, 1971-ci ildə HDQ-nin gəmiləri registrinin hesabından silinib və muzey gəmisi qismində istifadə olunmaq üçün Merilend ştatına verilib. Hazırda gəmi Baltimor limanında tarixi gəmilər donanmasının tərkib hissəsidir.

Hərbi əməliyyatlar zamanı gəmidə 10 zabitdən, o cümlədən gəmi kapitanından və



71 nəfərdən ibarət heyət olub. Sualtı qayıq 10 ədəd 530 millimetrlik torpeda aparatı ilə silahlanıb. Torpedaların altısı gəminin burun hissəsində, qalan dördü arxa tərəfində olub. Aparatları 12-15 heyət üzvü idarə edib. O, həmçinin 130 millimetrlik (25 kalibrlik)




göyərtə artilleriya qurğusu və 40 millimetrlik "Bofors" topu və 20 millimetrlik "Erlikon" topu ilə təchiz edilib.

*Yusif Babanlı*
*AZƏRTAC-ın xüsusi müxbiri*
*Vaşinqton*

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**

**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

## Allah rəhmət eləsin

**Respublika Veteranlar Təşkilatının rəyasət heyəti Müdafiə Nazirinin müavini – Şəxsi heyət baş idarəsinin rəisi general-leytenant Kərim Vəliyevin qardaşı Vəli Vəliyevin vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə baş sağlığı verir.**

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:*** *1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu:*** *012 440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*